# MƏNƏVİ SAFLIĞIN KEŞİYİNDƏ

*(Əvvəli ötən sayımızda)*

"Hava isti və küləksiz olduğundan dənizin üzü güzgü kimi parıldayırdı. Ətrafdakı sakitliyi yalnız dənizin üzərində uçuşaraq bir-birilə oynaşan qağayıların səsləri pozurdu...

Şahdağlı təbiətin bu təkrarsız gözəlliklərinə nə qədər baxsa da, fikrini nə qədər dağıtmaq istəsə də, alınmırdı... Bütün fikri-zikri oturacağın üzərinə qoyduğu çantasında idi...

Qovluqdakı işdən tamamilə xəbərsiz olsa da, orada günahsız bir insanın hansısa daşürəklinin bəd əməlinə görə nə qədər mənəvi və maddi əziyyətlər çəkməsini dəqiq bilirdi. Bu günahsız insanla bərabər onun ailəsinin və bütün yaxın ətrafının əsəb sarsıntılarını, yuxusuz gecələrini də buraya əlavə etsək, edilmiş haqsızlığın miqyasını görmək olardı. Sanki bu günahsız insan onun çantasının içərisində oturaraq azad olunacağı anı səbirsizliklə gözləyirdi...

Belə olan təqdirdə təcrübəli təhqiqatçı görəcəyi işin nə qədər çətin və uzun sürən bir proses olduğunu dərk edirdi. Əgər Respublika Baş Prokurorluğu və ərazi üzrə Hərbi Prokurorluq bu işi açа bilməyibsə, bu tapşırığın asan olmayacağını anlayırdı Fərhad Şahdağlı...

Yadına düşəndə ki, səhər şənbə günüdür, çox sevindi. Çünki sabah nazirlikdə heç kəs olmadığı üçün əlindəki işlə elə orada tanış ola bilərdi. Ona görə də bu gün yaxşıca dincəlib, əsəblərini kifayət qədər sakitləşdirə bilərdi.

O, hər çətin bir tapşırıq alan günü mütləq əl-ayaqdan uzaq bir guşəyə çəkilib saatlarla heç nə etmədən dincəlməli və beynini məşğul edən bütün fikirlərdən özünü azad etməli idi. Uzaq tələbəlik illərindən bu günədək davam edən vərdişindən heç cür əl çəkə bilmirdi. Elə bu istəklə də bura gəlmişdi bu gün Fərhad Şahdağlı...

Axşam evə gələndə uşaqlarını dərs hazırlayan, evin xanımını isə həmişəki kimi mətbəxdə gördü. Həmişəkindən gec gəldiyindən, ona yenə çətin bir tapşırıq verildiyini hiss edən Aygün xanım belə vaxtlarda onu yersiz sorğu-suala tutmamağa çalışırdı. Bilirdi ki, hər vaxt olduğu kimi bu dəfə də əri onunla məsləhətləşəcəkdi. Odur ki, ərinin axşam yeməyini verib yatağını hazırladı. Və Aygün xanım onu da bilirdi ki, səhər iş günü olmasa da, Fərhad mütləq iş yerinə getməli idi. On səkkiz illik ailəlik müddətində belə vəziyyətlərdə Aygün xanım onu ailənin bütün qayğılarından azad edərək, həftəlik bazarlıqdan tutmuş hər işi öz üzərinə götürmüşdü...

Aldığı yeni təhqiqat işindən tam xəbərdar olmasa da, Şahdağlı həmin axşam Aygün xanıma bir hərbi hissədə olmuş itmiş silahın axtarışı ilə bağlı yenidən axtarışa başlayacağını bildirdi. Yerinə tez girsə də, gündüz dincəlməsinə baxmayaraq, tez də yuxuya getdi. Elə bil çoxdan idi ki, şirin bir yuxuya həsrət idi...".

Bu hissə özü oxucuya əsərdə hansı atmosferin təsvir olunduğuna dair mühüm informasiyanı çatdırır. Deməli, bir daşürəklinin, idiotun yaramaz əməlinin ucbatından vətən uğrunda özünü fəda edən və hərbi vətənpərvərliyi müqabilində sonda Milli Qəhrəman adına layiq görülən Namiqin əslində mənəvi həyatı təhlükədədir. Çünki insan, hər şeydən öncə, mənəvi dünyanın daşıyıcısıdır. Namiq də yüksək mənəvi amallarla yaşayan vətənpərvər bir zabitdir. Ancaq indi ağlagəlməz yerdən onu şər qüvvələr burulğana salıblar. Yuxarıda əsərdən misal gətirdiyim hissənin davamı olaraq oxuyuruq: "Şahdağlının nə qədər yatdığından xəbəri yox idi. Gecənin bir aləmində sanki onu bir nəfər çiyinlərindən tutub, bərk silkələyərək oyatdı:

- Nə yatmısan, bəs məni nə vaxt buradan çıxaracaqsan?"




Əslində, bu, mənəvi mühakimədir. Bu, hüquqşünasın keçirdiyi mənəvi-psixoloji haldır. Əlbəttə ki, söhbət həqiqi, vicdanlı, əsl hüquq işçisindən gedir. Şahdağlı obrazı əsərdə yüksək mənəviyyatlı hüquq işçilərinin ümumiləşmiş obrazıdır.

Müəllif cəmiyyətdə baş verən antipod hallar və onlara qarşı mübarizə aparan hüquq işçilərinin təsvirini verməklə həm də o ideyanı ifadə edir ki, hüququ pozulan insanın hüququnun müdafiəsi və bərpası yolunda hüquqşünaslar mühüm rol oynayırlar. Bu, həm də o deməkdir ki, hüquq işçiləri, müstəntiqlər sadəcə ittiham eləmirlər, onlar hüququn bərpası yolunda canfəşanlıqlar göstərir, haqq-ədalətin təntənəsi uğrunda mübarizə aparmaqla həm də savab qazanmış olurlar. Ancaq bu, elə də asan məsələ deyil. Əsər boyu aparılan istintaqın gedişatından da biz bunu aydın şəkildə müşahidə edə bilirik. Əlbəttə ki, hər bir cinayət işinin açılması yolunda fədakarlıqlar tələb olunur. Bunun üçünsə ilk növbədə hüquq araşdırıcısının probleme həssas yanaşması tələb olunur. Cinayət qovluğunun sadəcə kağız-kuğuz yığını olmadığı, o qovluqda insan həyatının, insan taleyinin həll olunduğu amili hüquq orqanının əməkdaşını, hər şeydən əvvəl, içindən silkələməlidir. Bu incə məqamı yazıçı hüquqşünasın daxili düşüncələrinin inikası olaraq çox ustalıqla belə ifadə edir: "Sanki bu günahsız insan onun çantasının içində oturaraq azad olunacağı anı səbirsizliklə gözləyirdi". Bəli, yazıçı hüquq işçisinin keçirdiyi ruhi-psixoloji halı bu tərzdə açıb göstərir. Həqiqətən də, Namiq kimi vətənpərvər insanlara qarşı qarayaxmalar fonunda haqsızlıqlar göstərilməsi yolverilməz haldır və bu cür qanun pozuntularının aradan qaldırılması isə Şahdağlı kimi vicdanlı müstəntiqlərin çiyninə düşür.

Əsərdə göstərilir ki, aparılan uzunmüddətli və gərgin araşdırmalar bəhrəsini verir, əsərdə gözəçarpmayan obraz kimi verilən maşınyuyan oğlanın cinayət sirrini açmağı sayəsində haqq-ədalət öz yerini tapır.

Yazıçı kimi İsmayıl Məcidlinin də əsərdə vermək istədiyi qayə ondan ibarətdir ki, cəmiyyətimizdə antipod hallara qarşı hamımız mübarizə apararaq saf, mənəviyyatlı insanları biz özümüz qoruyaq, onları şər əməllərin qurbanı olmağa imkan verməyək.

***Şakir ƏLİFOĞLU,***
***"Ulu Xudafərin" qəzetinin baş redaktoru***